## AZƏRBAYCAN QADINI

Mən, səni ilham alıb təsvir etmədim ancaq
Zilqara xallılar tək;
Səndən söhbət açmışam, fərəhlənib coşaraq,
Dünya kamallılar tək.
Yazmışam tükənməyən mənəvi sərvətini
Bizim gözəl cahanda.
Sənin eyni zamanda
Tərənnüm eləmişəm şanını, şöhrətini.
Tarlada iş başında səhərdən görünəndə,
Axşam evə dönəndə
Gözümdə bayraq kimi göylərə ucalmısan.
Ağlın, fərasətinlə könülləri almısan.
A mehriban qələmqaş, a gözləri badamı,
Yaradan insanların yanında hörmətin var.
Sən ecazlar törədən şərəfli elm adamı,
Buruqlarda mühəndis,
Masa dalında memar.
Rəssamsan, bəstəkarsan.
Bütün cəbhələr boyu bizimlə sən də varsan.
İşıqlar yandırmısan mehrabında zəhmətin.
Həyat verir insana qayğın, mehrin, şəfqətin.
Sən misilsiz oxuyan,
Gəzəl xalı toxuyan,
Həkim, şəfqət bacısı,
Tanışındır dünyanın şirinliyi, acısı.
Sən, ali məclisimdə mötəbər deputatsan.
Unudulmaz həyatsan.
Ey ana,
Ey mehriban,
Sevimli,
Gözəl qadın
Qəlbimin lövhəsində başda yazılıb adın.
Müqəddəsdir muradın, məhəbbətin təmizdir,
Vətən eşqin, qüdrətin tükənməz bir dənizdir.
El uğrunda oğul tək əllərində avtomat

Döyüşlərdə olmusan, al qanından keçmisən,
Gülsün deyə kainat.
Həyatın keşməkeşli tufanından keçmisən,
Əməllər dünyasından indi gül dərə-dərə,
Al şəfəqlər saçırsan günaydın səhərlərə.
Zəfər dastanlarıdır nəcib-nəcib işlərin.
Ən gözəl bir nəğmədir mənalı gülüşlərin.
Mən sənin incə ruhlu olduğunu yazmışam,
Tərənnüm eləmişəm beşik başında axşam
Səni layla deyəndə,
Baxtın əlvan geyəndə.
Yazmışam çeşmə kimi təmiz məhəbbətini.
Azərbaycan gözəli, yazmışam ismətini.
Sənsiz ömür sürənin sinəsi dağlı olar,
Üzünə səadətin qapısı bağlı olar.